# “Qardaş yenə birinci oldu”

## *Türkiyə KİV-i İlham Əliyevin R.T.Ərdoğana təbrikini manşet xəbəri kimi verdilər*

**Böyük türk dünyasının lider dövlətləri olan Azərbaycan ilə Türkiyə arasında dostluğa, qardaşlığa əsaslanan çoxtərəfli və sürətlə genişlənən münasibətlər hər iki ölkəni daha güclü mövqe sahibinə çevirməkdədir. Səmimi dostluq, strateji tərəfdaşlıq üzərində köklənən Azərbaycan-Türkiyə münasibətləri zaman keçdikcə daha da möhkəmlənir, tarixin bütün sınaqlarından böyük uğurla çıxır. Qarşılıqlı münasibətlərin daim yüksək səviyyədə saxlanılması, milli maraqları əhatə edən məsələlərdə tərəflərin bir-birini təmənnasız müdafiə etməsi isə Azərbaycan və Türkiyə rəhbərliyinin həyata keçirdikləri uğurlu siyasətin məntiqi nəticəsidir.**

Hər iki dövlət istər regionda, istər dünyada, istərsə də öz daxillərində cərəyan edən hadisələrə kifayət qədər həssaslıqla yanaşır. Bu mənada Türkiyənin qarşıdakı dövr üçün ictimai-siyasi həyatında böyük rol oynayacaq növbədənkənar prezident və 27-ci çağırış parlament seçkilərinin Azərbaycanın da xüsusi diqqətdə saxlaması tamamilə təbiidir.

Artıq seçkilərin yekun nəticələrindən belə məlum olur ki, qardaş ölkədə çoxluq 52,5 faiz səslə hazırkı Prezident Rəcəb Tayyib Ərdoğanı dəstəkləyib. Bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarına telefonla ilk olaraq zəng edərək seçkilərin uğurla keçməsi və qələbə münasibətilə onu təbrik edib, nəticələrin xalqın Prezident Rəcəb Tayyib Ərdoğanın siyasətinə verdiyi böyük dəstək kimi qiymətləndirib. Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirib. Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər. Azərbaycan Prezidenti həm də Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.

Bu mövzu türk KİV-nin diqqətini cəlb edib və geniş işıqlandırılıb. Rəcəb Tayyib Ərdoğanı ilk təbrik edən liderin məhz Prezident İlham Əliyev olması barədə onlarca teleşirkət, yüzlərlə qəzet və internet portalı xəbər paylaşıb.

“Milliyət” qəzeti “Azerbaycan Cumhurbaşkanı Aliyev, Erdoğan'ı Tebrik Etti” başlıqlı xəbəri oxuculara çatdırıb. Bildirilib ki, Prezident Ərdoğana ilk təbrik telefon zəngi Azərbaycan Prezidenti İlham Əliyevdən gəlib. Bundan sonra Özbəkistan, Macarıstan, Albaniya liderləri Ərdoğana öz təbriklərini çatdırıb.

“Takvim” qəzeti isə “İlham Aliyev, Cumhurbaşkanı Recep Tayyip Erdoğan'ı seçimlerdeki başarısından dolayı kutladı” başlıqlı xəbərində yazır ki, Rəcəb Tayyib Ərdoğanı təbrik edən ilk lider məhz Prezident İlham Əliyev olub: “Türkiyədə seçkilərin nəticələri bəlli olduqdan sonra ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik edib”.

“TRTHaber” kanalı “Azerbaycan Cumhurbaşkanı Aliyev, Cumhurbaşkanı Erdoğan'ı kutladı” başlıqlı xəbər yayımlayıb. Bildirilib ki, Rəcəb Tayyib Ərdoğanı ilk olaraq təbrik edən Azərbaycan Prezidenti İlham Əliyev seçkilərin nəticələrinə görə bütün Türkiyə xalqını təbrik edib.

“CNNTürk” kanalı da “İlham Aliyev, Cumhurbaşkanı Erdoğan'ı kutladı” başlıqlı xəbərə yer ayırıb. Kanal İlham Əliyevin “Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə daha da inkişaf edib, iqtisadi sahədə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib” fikirlərini diqqətə çatdırıb.

“Sabah”, “Aksam” “Günəş”, “Hürriyət” və digər qəzetlərdə “Ərdoğana ilk təbrik telefonu İlham Əliyevdən” başlıqlı xəbərlər dərc edilib.

Eyni xəbərləri “Anadolu”, “Doğan”, “ahaber.com.tr”, “cnnturk.com.tr”, “tgrthaber.com.tr”, “turktime.com”,”haberler.com”, “dikgazete.com”, “akittv.com”, “bursahayat.com.tr”, “adalaetbiz.com”, “maraspusula.com” və s. kimi xəbər agentlikləri də bölüşüb. “Dünya liderləri Ərdoğanı təbrik edir” başlığı ilə verilən xəbərlərdə qeyd olunur ki, İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanı zəng edərək təbrik edən ilk dövlət başçısı olması iki qardaş ölkə arasında əlaqələrin yüksək səviyyədə qurulmasının ən bariz nümunəsidir.

Ümumiyyətlə, Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanın prezident seçilməsi ilə bağlı ilk olaraq təbrik etməsinə Türkiyənin digər media orqanları da geniş diqqət ayırıb və bütün bunlar iki ölkə arasında qardaşlığın daha bir təzahürü kimi qiymətləndirilib.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*











































